**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZIRLİYİ**

F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI ELMİ-METODİKA ŞÖBƏSİ



**Ustad Məhəmmədhüseyn Şəhriyarın 100 illiyi münasibətilə**

# “Kimin güclüdürsə şeiri, sənəti, Onun əbədidir mədəniyyəti!

**(Metodik vəsait)**

**B A K I – 2010**

## Tərtibçidən

Poeziya sənətkar zəkasının xalq üçün miras qoyduğu ən qiymətli sərvətdir. Xalqın əmanət kimi əsrlərlə qoruyub saxladığı, nəsillərdən-nəsillərə ötürdüyü bu sərvət heç bir hüdud, sərhəd bilmədən dünyanı dolaşır, dil, din, milliyyət və irq mənsubiyyəti tanımadan könülləri fəth edir. Beləcə, bir xalqın, millətin yetirdiyi sənətkar öz bədii düşüncə tərzi ilə neçə-neçə xalq və millətlərin doğmasına, sevimlisinə çevrilir və milyonların qəlbində yaşayır. Bütün Şərq poeziyasında qüdrətli qələm sahibi kimi sevilən belə sənətkarlardan biri də görkəmli Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyardır.

Bu il görkəmli şairimiz Məhəmmədhüseyn Şəhriyarın 100 illik yubileyi respublikamızın bir çox mədəniyyət ocaqlarında yüksək səviyyədə qeyd olunacaqdır. Bu yubileylə əlaqədar olaraq respublikanın bir çox yerlərində, həmçinin F.Köçərli adına Respublika Uşaq kitabxanasında ustad Şəhriyarın yubileyi münasibətilə tədbirlər planı hazırlanmışdır. Belə tədbirlər planını hazırlamaqda məqsədimiz ustad Şəhriyarın ədəbi irsinin oxucular arasında təbliğindən ibarətdir.

Metodiki vəsait iki bölmədən ibarətdir. Bu vəsaitdən əsasən məktəb, kollec, lisey, gimnaziya və s. kitabxanaların kitabxanaçıları istifadə edə bilərlər.

## Giriş.

**Böyük vətənpərvər şairimiz Məhəmmədhüseyn Şəhriyarın poeziyası dövrün ictimai, siyasi, fəlsəfi və ədəbi düşüncələrinin əksidir. Şair xalq həyatının dərinliklərinə enmiş, zamanın kəskin ictimai təzadlarını, şərin, ədalətsizliyin, mənəvi məhkumiyyətin faciələrini poeziyanın rəvan, aydın və təsirli dili ilə dünyaya car çəkmişdir.**

**Bugünkü və gələcək nəsillərin yüksək mənəvi dəyərlərlə zənginləşdirilməsində böyük rola malik olan dahi sənətkarın yaradıcılığının dərindən öyrənilməsi, tədqiq və tədris edilməsi sənət və elm xadimlərimizin müqəddəs borcudur.**

**Heydər Əliyev**
**Ümumilli lider**

Yaşı əsrlərlə ölçülən Azərbaycan poeziyasının son yüz ildə yetirdiyi ən böyük ustadlarından birinin Seyid Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 100 illiyi tamam olur. Şeiri "həyatının ən böyük möcüzəsi" adlandıran şair öz möhtəşəm poeziyası ilə sərhədsiz söz dünyamızın mənəvi bütövlüyünün daha möhkəm, daha əzəmətli olmasına əvəzsiz xidmətlər göstərmişdir.

Hüdudsuz bir qürur hissi ilə "mənəm həm şeirin Allahı, həm İran şeirinin şahı" deyən Şəhriyarın yaratdığı misilsiz poeziya inciləri ona bu sözləri tərəddüd etmədən dilə gətirmək haqqı verirdi.

Məhəbbət lirikasının böyük korifeyləri Hafiz və Füzulinin qəzəlləri ilə müqayisəyə qadir olan sevgi şeirləri, dünyanın, həyatın mahiyyəti barədə fəlsəfi düşüncələri əks etdirən hikmətli qəsidələr, real həyat müşahidələrinin məhsulu kimi yaranan lirik poemalar müəllifi olan, şan-şöhrətli və eyni zamanda məşəqqətli bir ömür yolu keçmiş sənətkarı Azərbaycan şeirinin ən yüksək zirvələri sırasına ucaldan, ilk növbədə onun Vətən məhəbbəti, vətənpərvərlik duyğuları aşılayan, milli həmrəylik ideyasını təbliğ edən əsərləri olmuşdur.

Tarixin ədalətsizliyi ilə ikiyə parçalanmış Azərbaycanın Araz dərdi, iki qardaş arasında tikanlı sərhəd məftillərindən çəkilmiş həsrət çəpərinin sızıltılı ağrıları Şəhriyar poeziyasında qəmli əks-səda doğurur. Şəhriyar poeziyasının qüdrəti ondadır ki, bədbinlik dumanında qapınıb qalmır, xoş günlərə ümid, inam bəsləmək üçün özündə təpər tapa bilir, nikbin duyğular təlqin edir. Bu inamı ona verən şimalına-cənubuna fərq qoymadığı Vətənin mənəvi bütövlüyündən, can qardaşlarının uğur soraqlı xoş sədasından aldığı mənəvi gücdür.

Yaman günlər keçib-gedir itəndi,
Bu yaxşılıq muradına yetəndi,
Orda burdan yüz il sənət qabaqdı,
Kənd gördüyün həmən taxta-tabaqdı.

Orda bizim qızıl Kəbə Bakıdı,
Şanlı bakıçılar xaki-pakidi.
İncə sənətlərin abu xakidi,
Orda hünər mədənlərtək qazılıb,
"Məşədi İbad", "Arşın malçı" yazılıb.

Məhəmmədhüseyn Şəhriyarı XX əsr Azərbaycan poeziyasının nəhəngləri sırasına ucaldan ilk növbədə onun ölməz "Heydərbabaya salam" poeması olmuşdur. Əsərdə böyük vətənin simvolu kimi götürülmüş balaca bir kəndin həyatı, adət-ənənələri, insanların taleyi və xarakteri ana dilimizin bütün poetik əzəmətini əks etdirən möhtəşəm bir üslubla ifadə olunmuşdur. "Heydərbabaya salam" əslində şairin uşaqlıq yaddaşında yaşayan ucqar bir kəndin xiffəti ilə yazılsa da, ümumiləşdirmə qüdrətinin böyüklüyünə görə bütöv Vətən haqqında dastan kimi qavranılır.

Bir uçsaydım bu çırpınan yelinən,
Bağlaşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən,
Bir görəydim, ayrılığı kim saldı?
Ölkəmizdə kim qırıldı, kim qaldı?

Məhəmmədhüseyn Şəhriyar Vətəninin, millətinin, böyük qələbə və birlik gününü görmədən dünyadan köçsə də, o günün gələcəyinə, poeziyasına yandırdığı azadlıq məşəlinin sönməyəcəyinə inanırdı.

Aşıq deyər, bir nazlı yar var imiş,
Eşqindən odlanıb yanar var imiş,
Bir sazlı-sözlü Şəhriyar var imiş,
Odlar sönüb, onun odu sönməyib,
Fələk çönüb, onun çarxı sönməyib.

Ömrünün son illərini Azərbaycanın qədim paytaxtı Təbrizdə keçirərək Vətən torpağına qovuşan şairin sənəti kimi məzarının da müqəddəs tutularaq ziyarətgaha çevrilməsi Şəhriyar odunun sönməzliyini bir daha təsdiq edir.

## Yubiley tədbirlərinin keçirilməsi

*Türkün dili tək sevgili,*
*istəkli dil olmaz,*
*Ayrı dilə qatsan,*
*bu əsil dil əsil olmaz.*
**Şəhriyar.**

Təkcə çağdaş Azərbaycan ədəbiyyatının deyil, həm də XX əsr Şərq şeirinin nadir simalarından olan, poeziyada böyük məktəb yaradıcısı kimi tanınan M.Şəhriyara bu gün Şərq və Qərbin maraq və pərəstişi göz qabağındadır. Ulu Şəhriyarın 100 illik yubiley tədbirləri təkcə anadan olduğu Vətənində deyil, ayrı-ayrı ölkələrdə keçirilməkdə davam edir. 2006-cı ildə Şəhriyarın 100 illiyi ilə bağlı Təbriz və Tehran şəhərlərində keçirilən Beynəlxalq konfrans dahi şairimizin qüdrətini, ona olan məhəbbəti bir daha nümayiş etdirdi. 2006-cı il Tacikistanda, 2007-ci il Ankarada Şəhriyarın 100 illik yubileyi ilə əlaqədar təşkil olunmuş Beynəlxalq konfranslar da Şəhriyar dühasının Beynəlxalq aləmdə təsdiqi, qəbulu və nümayişi baxımından səciyyəvidir. Ömrü boyu türk ruhuna, türk zövqünə sadiq qalan, ona xidmət göstərən, “sevgili, istəkli türk dilində” möcüzələr yaradan, “türkünün qadağalarla” üzləşməsinə etiraz edən, fars dilli yazdıqlarını da türk təfəkküründən keçirən, nəhayət heç bir zaman Türkiyə sərhədlərini aşıb özünün gələ bilmədiyi bu müqəddəs yurda Şəhriyarın sözü nəinki gəlmişdi, həm də qəlblərə hakim kəsilmişdi.

M. Şəhriyar İranda doğulub yaşasa da, Türkiyəni də Vətən bilmiş, ömrü boyu tarixi qədim, mədəniyyəti zəngin, “qeyrət kanı”, “islam ocağı” olan türk ölkəsinə getmək, onun müqəddəs torpağına ayaq basmaq, tarixlər şahidi olan türk yurdunu ziyarət etmək arzusunda olmuşdur. Lakin şah reyimi dahi şairin həm Azərbaycana, həm də Türkiyəyə getməsinə imkan verməmiş, Şəhriyarın arzularını ürəyində qoymuşdur.

Artıq elmi ədəbiyyatlarda çoxdan bəri etiraf olunduğu kimi Seyid Məhəmmədhüseyn Şəhriyar fars dilində də oriyinal və mükəmməl sənət əsərləri yaratmağa nail olmuşdur. Təsadüfü deyildir ki, M.Şəhriyarın adı farsdilli ədəbiyyatın Nizami Gəncəvi, Sədi Şirazi, xüsusən Xacə Hafiz kimi ölməz şairləri ilə yanaşı çəkilir. Fars dilində qiymətli əsərlər yazması onu İranda, Hindistanda, Əfqanıstanda, Tacikistanda, hətta bu dilə yaxın olan ərəb dünyası ölkələrində də tanıtmışdır. Azərbaycan dilində yazılmış əsərlərində Şəhriyar daha çox milli, farsdilli şeirlərində isə bəşəridir. Bununla belə, M.Şəhriyarın fars dilində yazdığı əsərlər azərbaycanlı ruhunun poetik ifadəsidir. İki dildə yazıb-yaradan sənətkarlar bu dillərdən birində qələmə aldıqları əsərlərlə məşhur olduğu halda, M.Şəhriyar

hər iki dilin poetik zirvəsini fəth etməyi bacarmışdır. Bütün bunlara görə`Şəhriyar sənətinin yayılma dairəsi çox genişdir.

Məhəmmədhüseyn Şəhriyarın əsərləri hələ şairin öz sağlığında Türkiyədə nəşr olunmuş, Anadolu türkcəsində uğurla səslənmişdir. Öz növbəsində Anadolu türkcəsi şairin yaradıcılığının təkcə Türkiyədə deyil, bütün türk dünyasında yayılmasına və tanınmasına şərait yaratmaqdadır. Beləliklə, Azərbaycan şairi M.Şəhriyarın adı və sənəti bütövlükdə türk-müsəlman dünyasında məşhurdur. Şairin haqqında məlumatların dünya dillərində də yayıldığını və ya ustadın şeirlərinin Avropa xalqlarının dillərində, xüsusən ingilis və fransız dillərində səsləndiyini nəzərə alsaq, artıq Şəhriyarın ölməz adının və parlaq sənətinin daha geniş miqyasda tanındığını və şöhrət qazandığını aydın surətdə görərik.

Şəhriyar türk-müsəlman dünyası ədəbiyyatının qüdrətli nümayəndəsidir.

Seyid Məhəmmədhüseyn Şəhriyarın ölməz, həmişəyaşar irsi dünya ədəbiyyatı və mədəniyyəti xəzinəsinin əbəbi sərvətidir.

Beləliklə, bu il dünya şöhrətli ustad Məhəmmədhüseyn Şəhriyarın 100 illik yubileyi qeyd olunur. Bu münasibətlə, respublikamızın hər bir müəssəsində kitabxanalarda, məktəblərdə, lisey və gimnaziyalarda, muzeylərdə və s. yerlərdə M.Şəhriyarın yubileyi ilə əlaqədar bir sıra tədbirlər planı hazırlanmışdır. Belə tədbirlərin siyahısı genişdir. Ustad Şəhriyarın yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında bir çox tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur ki, bunlardan kitab sərgilərini, şeir müsabiqələrini, oxucu konfranslarını, səhərcikləri, xatirə gecələrini, ədəbi-bədii gecələri misal gətirmək olar. İlk öncə kitabxanada Məhəmmədhüseyn Şəhriyarın yubileyi ilə bağlı kitab sərgisinin keçirilməsi vacibdir. Beləki, sərgidə Məhəmmədhüseyn Şəhriyarın indiyə qədər çap olunmuş kitabları ilə yanaşı, dövrü mətbuatda da yer alan materialların nümayişi nəzərdə tutulmuşdur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “Məhəmmədhüseyn Şəhriyar-100”, “Ustad Şəhriyardan bir xatirə”, “Şəhriyar gecəsi”, “Ölməzlik” və s. İndi isə sərginin nümunəsini veririk.

1. **Başlıq: Məhəmmədhüseyn Şəhriyar-100.**
2. **Məhəmmədhüseyn Şəhriyarın ailə şəkillərinin sərgisi.**
3. **Sitatlar.**
4. **Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.**
5. **Kitablarının nümayişi.**
6. **Şeir parçası.**

   **Şeir-azadlığım, şeir-həyatım,**
   **Ömrüm, səadətim, müqəddəratım!**
   **Min qəlbdə çalınan tar kimiyəm mən,**
   **Əsrimin Hafizi, Saibiyəm mən.**
   **Şeirsiz bir dünya-kədər qəm kimi,**

**Şeirsiz cənnət də cəhənnəm kimi.**
**Ölkələr oyanar şeirin səsindən,**
**Şimşək misraların qəhqəhəsindən!**
**Kimin güclüdürsə şeiri-sənəti,**
**Onun əbədidir mədəniyyəti!**

**M.Şəhriyar**

Başlıq: **"M.Şəhriyar Azərbaycan ədəbiyyatının görkəmli klassikidir".**
**"Məhəmmədhüseyn Şəhriyar-100" adlı başlıq divardan asılır.**
**Sitatlar:**

1. Böyük vətənpərvər şairimiz Məhəmmədhüseyn Şəhriyarın poeziyası dövrün ictimai, siyasi, fəlsəfi və ədəbi düşüncələrinin əksidir. Şair xalq həyatının dərinliklərinə enmiş, zamanın kəskin ictimai təzadlarını, şərin, ədalətsizliyin, mənəvi məhkumiyyətin faciələrini poeziyanın rəvan, aydın və təsirli dili ilə dünyaya car çəkmişdir.

   Bugünkü və gələcək nəsillərin yüksək mənəvi dəyərlərlə zənginləşdirilməsində böyük rola malik olan dahi sənətkarın yaradıcılığının dərindən öyrənilməsi, tədqiq və tədris edilməsi sənət və elm xadimlərimizin müqəddəs borcudur.

   Heydər Əliyev
   Ümumilli lider

2. Məhəmmədhüseyn Şəhriyarın ədəbi irsi parçalanmış, bölünmüş Azərbaycan xalqının mənəvi xəzinəsinin toxunulmaz, bölünməz sərvətidir.

   Asif Rüstəmli
   Filologiya elmləri namizədi

3. Şəhriyar kimi ustad şairlərin olması bizim üçün böyük nemətdir. Şəhriyarın şeir dili, xüsusən türkcə şeirləri çox cazibəli, güclü, axıcı və ürəyəyatandır. Heydərbaba şeirləri bunu kamil surətdə göstərir. Dünyada bu poemanın çox mühüm mövqeyi vardır və çox ali əsəridir. Şəhriyarın fars şeirləri də çox-çox üstün səviyyəlidir. Amma məncə Şəhriyarın türkcə şeirləri çox qiymətli və əzəmətlidir.

   Seyid Əli Xamineyi
   İran İslam Respublikasının rəhbəri

4. Şəhriyarın əsərləri içərisində "Heydərbabaya salam" poeması xüsusi yer tutur. Bu onun vətənpərvərlik duyğularının, humanizminin parlaq ifadəsidir. Bütün bunların içində böyük bir ürəyin həsrəti duyulur, çox uca bir amalın işığı görünür, şairin yaxşılığa, birliyə çağıran rübabının səsi qulağımıza gəlib çatır.

   Mirzə İbrahimov
   Xalq yazıçısı

5. Cənub dərdi, Cənub həsrəti, Cənub mövzusu həmişə bizim ədəbiyyatımızın dəyişilməz mövzularından olmuşdur...Bu mənada ustad Şəhriyarın “Heydərbabaya salam” poeması həmin mövzuda bizim oxucuların ən çox sevdiyi poetik əsərlərdəndir.

Abbas Zamanov
Əməkdar elm xadimi

6. Müasir Şərq poeziyasında görkəmli yer tutan Məhəmmədhüseyn Şəhriyar dünya ədəbiyyatı xəzinəsinə qiymətli incilər bəxş etmişdir. Əsrinin Hafizi adlandırılan bu nəhəng sənətkar öz zəngin poeziyası ilə ürəkləri fəth etmiş, geniş xalq kütlələrinin sonsuz məhəbbətini qazanmışdır.

Şəhriyarın ustadlığı poeziyasının ideya zənginliyində, bədii saflığında və səmimiyyətindədir.

Hökumə Billuri
Şairə

7. Məhəmmədhüseyn Şəhriyar XX əsrdə ərsəyə gəlmiş ən görkəmli şairlərdən biri, Azərbaycan və İran ədəbiyyatlarının fəxridir.

Bəkir Nəbiyev
Akademik

8. Heydərbaba dağı Şəhriyarın aşıb-daşan şeir xəzinəsinin qızıl açarı olmuşdur.

Budaq Budaqov
Akademik

Məhəmmədhüseyn Şəhriyarın yubileyi ilə əlaqədar kitabxanada keçiriləcək tədbirlərin siyahısına şeir gecəsini də daxil etmək olar. Şeir gecəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Bu tədbiri keçirməkdə məqsədimiz oxucuların şeiri daha dərindən duymaq, başa düşmək, qabiliyyətini artırmaqdır. Belə müsabiqələri adətən məktəbin yuxarı və ya aşağı sinif şagirdləri arasında keçirmək nəzərdə tutulur. Beləki, VIII-XI sinif şagirdlərindən yaxşı şeir demək bacarığı olan uşaqlar seçilir. Məhəmmədhüseyn Şəhriyarın ən çox uşaqlar və böyüklər arasında sevilən şeirlərindən biri “Heydərbabaya salam” şeiri söylənilir. Uşaqlar şeiri söyləməmişdən əvvəl kitabxanaçı Məhəmmədhüsen Şəhriyarın “Heydərbabaya salam” poeması haqqında oxuculara bir qədər məlumat verir.

Azərbaycanın hər iki hissəsində dillər əzbəri olan məşhur ”Heydərbabaya salam” poeması ustad Məhəmmədhüseyn Şəhriyarın yaradıcılığının zirvəsidir. Fars dilində çoxcildlik divan yaratmasına və Azərbaycan dilində yazılmış milli şeirin klassik bədii nümunələrini yazmağa nail olmasına baxmayaraq, o, “Heydərbabaya salam” poeması ilə tanınıb şöhrətlənmişdir. Bu poema Azərbaycan ədəbiyyatının şah əsərlərindən olmaqla bərabər, həm də dünya poeziyasındakı nadir lirik poemalardan biridir. Şəhriyar şeirinin zirvəsi olan bu qiymətli əsər çağdaş dünya

bədii fikir xəzinəsinin mirvarisidir. Bu əsərə Azərbaycanda, İranda, Türkiyədə, İraqda Orta Asiyada çoxlu nəzirə və bənzətmələr yazılmışdır. Bir sözlə, türk-müsəlman dünyası ədəbiyyatında "Heydərbabaya salam" poeması qədər bənzətmə və nəzirələr həsr olunmuş ikinci bir əsər tapmaq çətindir.

XX yüzillikdə Arazın o tayında və bu tayında "Heydərbabaya salam" poeması qədər geniş yayılan, çox oxunan və bütün xalq tərəfindən sevilən ikinci bir əsər tapmaq çətindir. Bütün bunlara görədir ki, müasirləri ustad M.Şəhriyarı "Heydərbaba şairi" adlandırmışlar.

"Heydərbabaya salam" poeması iki hissədən ibarətdir. 76 beşlik bənddən ibarət olan birinci "Heydərbabaya salam" əsəri 1953-cü ildə yazılmış, ilk dəfə 1954-cü ildə Təbrizdə kitab halında çap olunmuşdur. İkinci hissə isə Məhəmmədhüseyn Şəhriyarın uzun ayrılıqdan sonra doğma yurda Xoşginaba səfərindən sonra, 1963-cü ildə qələmə alınmışdır.

İndi isə ölməz sənətkar Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasından bir hissəni oxucuların ifasında dinləyək.

*(Oxucular səhnəyə daxil olurlar)*

**I oxucu:** Heydərbaba, ildırımlar çaxanda,
Sellər, sular şaqqıldayıb axanda,
Qızlar ona səf bağlayıb baxanda,
Salam olsun şövkətüzə, elüzə,
Mənim də bir adım gəlsin dilüzə.

Heydərbaba, kəhliklərin uçanda,
Kol dibindən dovşan qalxıb qaçanda,
Bağçaların çiçəklənib açanda,
Bizdən də bir mümkün olsa yad elə,
Açılmayan ürəkləri şad elə.

Bayram yeli çardaxları yıxanda,
Novruzgülü, qar çiçəyi çıxanda,
Ağ buludlar köynəklərin sıxanda,
Bizdən də bir yad eyləyən sağ olsun,
Dərdlərimiz qoy dikəlsin, dağ olsun.

**II oxucu:** Heydərbaba, gün dalıvı dağlasın,
Üzün gülsün, bulaqların ağlasın,
Uşaqların bir dəstə gül bağlasın,
Yel gələndə ver gətirsin bu yana,
Bəlkə mənim yatmış bəxtim oyana.

Heydərbaba, sənin yüzün ağ olsun,
Dörd bir yanın bulaq olsun, bağ olsun,
Bizdən sora sənin başın sağ olsun,
Dünya qəzov-qədər, ölüm-itimdi,
Dünya boyu oğulsuzdu, yetimdi!

Heydərbaba, yolum sənnən kəc oldu,
Ömrüm keçdi, gələmmədim, gec oldu,
Heç bilmədim gözəllərin nec oldu,
Bilməz idim döngələr var, dönüm var,
İtginlik var, ayrılıq var, ölüm var.

Heydərbaba, iyid əmək itirməz,
Ömür keçər, əfsus bərə bitirməz,
Namərd olan ömrü başa yetirməz,
Biz də, vallah, unutmarıq sizləri,
Görəmməsək, halal edin bizləri.

Kitabxanada həmçinin, Məhəmmədhüseyn Şəhriyarın 100 illik yubileyi ilə bağlı kitab müzakirəsi də keçirmək olar. Kitab müzakirəsinə o taylı, bu taylı Şəhriyar sənətinin pərəstişkarlarından bir qrup insanı dəvət etmək olar. Tədbir müəllifi Elman Quliyevə aid olan "Şəhriyar poeziyası və milli təkamül" adlı kitabın müzakirəsi ilə başlayır. Tədbirdə iştirak edən qonaqlara Məhəmmədhüseyn Şəhriyarın həyat və yaradıcılığından məlumat verilir.

Qüdrətli Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın böyük mənəvi gücə və təsirə malik olan poeziyası xalqımızın əsl milli-mədəni sərvətidir. Şəhriyar şeiri zəngin tarixi və ənənəsi olan ədəbiyyatımızın yeni mərhələdə inkişaf istiqamətini və yaşarlılığını müəyyənləşdirən poetik bir dünyadır. Qüdrətli və son dərəcə fərdi qələm sahibi olan Şəhriyarın bənzərsiz və təkrarsız poeziyasında dühası, yaradıcılığının böyük milli və bəşəri dəyəri aydın görünür. Şəhriyarın olduqca geniş və zəngin olan yaradıcılıq dünyası aydın olduğu qədər də sehrlidir. Şəhriyar fenomenini araşdırmaq, incələmək, sənət dünyasının sirlərini bütünlüklə açıb bəyan etmək çətin işdir. Çünki, fərdi, bənzərsiz və müqayisəyə gəlməyən bu dünya özünü ciddi mübahisələr müstəvisində öyrənməyə, tədqiqə təhrik edir.

İstedadlı tədqiqatçı bu əsərinə qədər də Şəhriyar poeziyası haqda dövrü mətbuatda, ədəbi-elmi sessiya və konfranslarda maraqlı çıxışlar etmişdir. Tədqiqatçının ümidləri doğruldan "Məhəmmədhüseyn Şəhriyar poeziyası və milli təkamül" araşdırması sirli-sehrli böyük sənət dünyasına daxil olmaq üçün ən münasib açar olduğundadır ki, şairin yaradıcılıq uğurları arasındakı ideya-estetik əlaqələrin tipoloji sırası, mərhələvi mahiyyət dəyişmələri, bu sənətdə milli və bədii

təkamül prosesinin özəllikləri açıqlana bilinir. Bu uğura tədqiqatçının Şəhriyar dünyasına, onun yaradıcılıq psixologiyasına bələdliyi, şairin qəlb aləmini dərindən duyması da az təkan verməmişdir. Şairin poetik dünyasının əsl sənət möcüzəsi olması barədə ədəbi-tənqidi fikirdə mövcud olan qənaətlərin tədqiqi də bu kitabın şəhriyarsevərlər tərəfindən maraqla qarşılanacığına inamımızı bir daha artırır. Tədqiqata ilk dəfə cəlb edilmiş fakt və materialların bolluğu, böyük şairin poeziyasında özünəməxsus təkrarsızlıqla istifadə edilmiş avtobioqrafik məqamların aydınlaşdırılması bütövlükdə onun sənət dünyasının sirlərini açıqlamağa, dərindən duyub anlamağa yardımçı olacaqdır.

Ustad Məhəmmədhüseyn Şəhriyarın yubileyi ilə əlaqədar olaraq kitabxanada ədəbi-bədii gecənin keçirilməsi də nəzərdə tutulmuşdur. Beləki, ədəbi-bədii gecə iki hissədən ibarət olur. Tədbirə kitabxanaçı bir çox qonaqlar dəvət edə bilər. Bunların içərisində ziyalılarımızla yanaşı, ədəbiyyat müəllimləri, tanınmış şair və yazıçılarımız, Şəhriyar ədəbi-irsinin tədqiqtçıları və s. insanları dəvət oluna bilər. Tədbirə kitabxanaçı bir ay öncədən hazırlaşmalıdır. İndi isə **"Ustad Şəhriyardan bir xatirə"** adlı ədəbi-bədii gecənin ssenarisini veririk. Tədbirin birinci hissəsi çıxışlar, məruzələrlə başlayır. İkinci hissədə isə oxucular şairin poema və şeirlərini, sözlərinə bəstələnmiş mahnıları ifa edirlər.

Səhnənin divarından **"Ustad Şəhriyardan bir xatirə"** adlı başlıqla yanaşı, şairin şəkli asılır. Ulu öndərimiz Heydər Əliyevin Məhəmmədhüseyn Şəhriyar haqqında söylədiyi sitat da divarda öz əksini tapır. Səhnə gül dəstələri ilə bəzədilir.

**Sitat:**

**Şəhriyar ədəbi irsinin bədii və fəlsəfi siqləti onun bəşəri konsepsiyasındadır. Qüdrətli şairin əsərləri bizi bu gün də yazıb-yaratmağa, gələcəyə nikbin gözlə baxmağa, bir sözlə, birləşməyə səsləyir. Məhz buna görə də Şəhriyar bütün müsəlman dünyasının qüdrətli bir ustadıdır.**

**Ümumilli lider**
**Heydər Əliyev**

**"Ustad Şəhriyardan bir xatirə"** adlı tədbiri kitabxanaçı açıq elan edir.

*(Səhnəyə aparıcılar daxil olur. Tədbir ustad Məhəmmədhüseyn Şəhriyarın sözlərinə bəstələnmiş "Azərbaycan" mahnısının sədaları ilə başlayır. Oxucular Azərbaycanın üçrəngli bayrağını səhnəyə gətirirlər. Aparıcı gələn qonaqları salamladıqdan sonra ölməz sənətkar Məhəmmədhüseyn Şəhriyar haqqında bir qədər məlumat verir.)*

**I Aparıcı:** Məhəmmədhüseyn Şəhriyar XX əsr Azərbaycan ədəbiyyatının nəhəng, qüdrətli ədəbi simasıdır. Onun adını və sənətini Azərbaycanın, şimalı, yaxud cənubi ilə məhdudlaşdırmaq qeyri-mümkündür. Şəhriyarın əsərləri artıq uzun illərdir ki, o taylı-bu

taylı Azərbaycanın hüdudlarını aşaraq dünyanın azərbaycanlılar yaşayan bütün ölkələrində yayılmışdır. Bu mənada ustad M.Şəhriyar dünya azərbaycanlılarının sevimli şairi olmaq hüququ qazanmışdır.

Bildiyiniz kimi, M.Şəhriyarın anadan olma tarixi hələlik tam məlum olmamışdır. Lakin aparılan araşdırmalar göstərir ki, Seyid Məhəmmədhüseyn Şəhriyar 1905-ci ildə Təbrizdə, qədim Bağmeşə məhəlləsində anadan olmuşdur. Ədibin adı Seyid Məhəmmədhüseyn Behcət Təbrizi, təxəllüsü Şəhriyardır. Görkəmli şair yaradıcılığının ilk dövrlərində şeirlərini “Behcət” təxəllüsü ilə yazmasına baxmayaraq, ustad sənətkar türk-müsəlman aləmində və ümumiyyətlə, dünya ədəbiyyatında Şəhriyar kimi tanınır və geniş şöhrət qazanır. Hətta onu yüksək mənada “şairlərin Şəhriyarı” da adlandırırlar.

**II aparıcı:** Ustad Məhəmmədhüseyn Şəhriyarın atası Hacı Mirağa Xoşginabi adından göründüyü kimi, Güney Azərbaycanın Xoşginab bölgəsindən idi. O, tanınmış və bacarıqlı vəkil kimi xalq arasında xüsusi hörmət qazanmışdır. Məhəmmədhüseyn Şəhriyar “Heydərbabaya salam” poemasında atasını böyük ehtiramla belə xatırlamışdı.

***Mənim atam süfrəli bir kişiydi,***
***El əlindən tutmaq onun işiydi.***

Hacı Mirağa Xoşginabi xoşsifət bir seyid idi. Orta boylu, vüqarlı, şirin danışıqlı, nüfuzedici baxışları var idi. Onun hər cür istedadı vardı. Özü yaxşı şeir qoşar, yaxşı xətt salardı. Musiqiyə, şeirə çox həvəsi vardı. Adətən çox səbrli və yumşaq xasiyyət olsa da, nadir hallarda əsəbiləşər və qəzəblənərdi.

Məşrutə dövründə təhlükəsizliyi təmin etmək məqsədilə Hacı Mirağa Xoşginabi təxminən 1909-cu ildə ailəsinin ata-baba yurdu Xoşginaba köçür. Bundan sonra Şəhriyarın uşaqlıq illəri Heydərbaba dağının ətəklərində, Xoşginabda, Şəngilavda, Qayışqurşaq kəndində Qaraçəməndə keçmişdir. Xoşginab mühiti özünün zəngin etnoqrafik çalarları, qaynar həyatı, rəngarəng milli adət-ənənələri, halal və işıqlı insanları ilə Seyid Məhəmmədhüseynin yaddaşında silinməz izlər buraxmışdır. Ümumiyyətlə, qısamüddətli Xoşginab illəri M.Şəhriyarın əsas ilham qanaqlarından birini təşkil edir. Dərin təsirə malik olan Xoşginab xatirələri illər keçəndən sonra şairin milli

özünəqayıdışının əsas təkanverici amillərindən birinə çevrilmişdir.

**I aparıcı:** Məhəmmədhüseyn Şəhriyar həyatının Xoşginab mərhələsində ilk dəfə məktəbə getmiş, axund Molla İbrahimdən dərs almışdır. Həmin məktəb illəri də Şəhriyar üçün unudulmaz xatirələrə malik olmuş, dünyagörüşünün inkişafı üçün ciddi təsir oyatmışdır. 1291(1912)-ci ildə Hacı Mirağa Xoşginabinin ailəsi Təbrizə qayıtmışdır. Təbrizdə M.Şəhriyar "Talibiyyə" mədrəsəsində oxumuş, burada ərəb, fars dillərini, evdə isə xüsusi müəllim vasitəsilə fransız dilini öyrənmişdir. Bu dövrdə şair Həbib Sahirlə tanış olmuş, Mirzə Ələkbər Sabirin şeirlərini oxumaq imkanı qazanmışdır. İlk şeirini də Məhəmmədhüseyn Şəhriyar elə bu dövrdə 1292(1913)-cü ildə məhz "Talibiyyə" məktəbində oxuyarkən yazmışdır. Təbrizdəki "Müttəidə" və "Mütəvvəssitə" mədrəsələrində oxuyarkən artıq M.Şəhriyarı istedadlı gənc şair kimi tanımışdılar. Hətta 1299(1920)-cı ildə onun Behcət təxəllüsü ilə yazdığı bir neçə şeir "Ərəb" adlı dərgidə çap üzü görmüşdür.

1924-cü ildə 19 yaşında ikən Tehranda Ali Tibb Universitetinə daxil olmuş Məhəmmədhüseyn Şəhriyarın bilik və dünyagörüşünün daha da zənginləşməsi dövrü olmuşdur. Beləki, bu mərhələdə Şəhriyar bədii yaradıcılığın təkamülü istiqamətində bir çox nəzərəçarpacaq ciddi uğurlar qazanmışdır.

**II aparıcı:** Bütün bunlarla, bərabər Ali Tibb Universitetində dərs alan Şəhriyarın həyatının aşiqlik dövrü hesab oluna bilər. Beləki, gənc şair bu illərdə Sürəyya adlı bir qıza aşiq olmuş, lakin ona qovuşa bilməmişdir. O zaman İran şahının qohumu Məhəmmədhüseyn Şəhriyarı həbsxanaya saldırmış, az sonra isə Tehranı tərk etməsi şərtilə onu həbsdən buraxdırıb Nişapura sürgün etdirmişdir. Beləliklə, Məhəmmədhüseyn Şəhriyar Ali Tibb Universitetində təhsilini başa vura bilməyib, Tehranı tərk edir. Nakam məhəbbət Şəhriyarın "Həzin nalələr", "İtmiş Yusif", "Odda yanan pərvanə", "Köynəyin qoxusu", "Dəli Pəri", "Behcətabad xatirəsi" kimi təsirli şeirlərinin yaranmasına səbəb olmuşdur.

Məhəmmədhüseyn Şəhriyarın universitetdən kənar edilməsi və Tehrandan uzaqlaşdırılması onun maddi sıxıntılar, nakam eşqin xətalı sonluğu, artmaqda olan ədəbi şöhrətinə olan paxıllıq və s. ilə izah olunur. Nişapurda və Məşhəddə keçən ağır sürgün

illərində (1930-1935) M.Şəhriyarın yazdığı "Nişapurda günəş batarkən" adlı poemasında həmin acı sürgün həyatının sərt, amansız Vətənindən, dostlarından, ədəbi mühitdən uzaq düşməsindən söhbət açılır.

Qorxudurdu məni qürbətdə qürub,
Ağladı halıma qürbət də durub.
Ya ilahi, qəribəm, eylə kömək,
Olmasın kimsə didərgin məntək!
Dostlarım düşdü uzaq, getdi Vətən!
Qaldı bir xəstə ürək, xəstə bədən!
Düşmüşəm bir yerə, yoxdur bir adam,
Olsa da mən bu vilayətdə yadam.
Bənzərəm mən o çəmən bülbülünə
Qarğa-quzğun daraşıbdır gülünə.
Axırı köçdü daha karivarım,
Nə edim ki, cana doymuşdu canım.

**I aparıcı:** Bununla belə, Məhəmmədhüseyn Şəhriyar sürgün illərində də imkan daxilində ədəbiyyat havası ilə yaşamağa can atmışdır. Uzun və üzücü sürgün həyatından sonra Məhəmmədhüseyn Şəhriyar 1935-ci ildə yenidən Tehrana qayıdır. Tehrana qayıdan şair çətin şəraitdə ədəbi-ictimai fəaliyyətlə məşğul olmasına baxmayaraq, bir müddət tərkidünya bir həyat keçirir. Bu illərdə həyatının böyük çətinliklərinə baxmayaraq, Şəhriyar ciddi surətdə klassik Şərq şeirlərinin incəliklərini dərindən mənimsəmiş, fars dilində yazdığı kamil şeirlərlə ədəbi mühitdə yenidən parlamışdır. Hətta bu dövrdə o, zəmanəsinin Hafizi adını qazanmışdır.

Şəhriyarın yaradıcılığında Azərbaycan mövzusu da geniş yer tutur. Ustad şair Azərbaycanı böyük Vətən kimi ilhamla, ürəklə tərənnüm etmiş, bu mövzuda heç bir ideologiyaya tabe olmayıb, ümumilli mənafeyi ifadə edən və ədəbi olaraq qala bilən mükəmməl şeirlər yazmışdır. Ustad sənətkarın "Azərbaycan" şeiri o taylı-bu taylı Azərbaycanda həmin mövzuda yazılmış ən yaxşı əsərlərdən biridir.

*(Oxucular M.Şəhriyarın "Azərbaycan" adlı şeirini səsləndirirlər)*

**Könlüm quşu qanad çalmaz sənsiz bir an Azərbaycan,**
**Xoş günlərin getmir müdam xəyalımdan, Azərbaycan.**
**Səndən uzaq düşsəm də mən, eşqin ilə yaşayıram,**

**Yaralanmış qəlbim kimi qəlbi vuran, Azərbaycan...**
**Vətən eşqi məktəbində can verməyi öyrənmişik,**
**Ustadımız deyib heçdir vətənsiz can, Azərbaycan!**
**Ya rəb, nədir bir bu qədər ürəkləri qan etməyin,**
**Qolubağlı qalacaqdır nə vaxtacan Azərbaycan?!**
**Övladların nə vaxtadək tərki-vətən olacaqdır?**
**Əl-ələ ver, üsyan elə, oyan, oyan Azərbaycan?!**
**Bəsdir fəraq odlarından kül ələndi başımıza,**
**Dur ayağa! Ya azad ol, ya tamam yan, Azərbayan!**
**Şəhriyarın ürəyi də səninkitək yaralıdır,**
**Azadlıqdır mənə məlhəm, sənə dərman, Azərbaycan!**

**II aparıcı:** Ustad şair Tehranın on illərdən bəri davam edən haqsız biganə münasibətindən narazı qalaraq, 1953-cü ildə qəti olaraq Təbrizə qayıdır. Təbrizə yenidən qayıdan Şəhriyarın həyata və sənətə marağı daha da artmış, incəsənətə meyli yenidən dirçəlmişdir. Bu müddət ərzində şair İranın ən məşhur musiqişünası Əbülhəsən Səba ilə yaxından tanış olmuş, İranın şeir və musiqi gecələrində fəal iştirak etmişdir. Beləliklə, bu vaxtdan sonra Şəhriyar Təbrizdə sadə və kasıb, lakin qürurlu bir ömür yaşamışdır. Bundan sonra İranın ayrı-ayrı vilayətlərində yaşayıb-yaradan Azərbaycan şairləri Təbrizdə ustad şairin ətrafında birləşmiş, ona böyük ehtiram bəsləmiş, ondan çox şey öyrənmişdilər. Beləliklə, Təbrizdə Azərbaycan şeirinin Şəhriyar məktəbi yaranmışdır.

Ümumiyyətlə, Məhəmmədhüseyn Şəhriyar Azərbaycan dilində 90 şeirin, iki hissədən ibarət olan "Heydərbabaya salam" və "Səhəndiyyə" poemalarının müəllifi kimi məşhurdur. Bu əsərlərdə Azərbaycan xalqının və bütövlükdə dünyanın sevinc və kədəri, ümid və inamları, qayğıları və arzuları ifadə olunmuşdur.

Ustad Məhəmmədhüseyn Şəhriyar 18 sentyabr 1988-ci ildə Tehranın Mehr xəstəxanasında vəfat etmiş, Təbrizdəki Surxab qəbristanlığında "Məqbərətüş-şüəra"da ("Şairlər məqbərəsi"ndə) dəfn olunmuşdur. Şəhriyarın ölümü günü Cənubi Azərbaycanda milli matəm günü elan edilmişdir. Hal-hazırda şairin yaşayıb-yaratdığı Təbriz şəhərində ən böyük küçələrindən biri böyük ustadın adını daşıyır. Ədibin uzun illər Təbrizin Məqsudiyyə məhəlləsində yaşadığı ev indi mənzil-

muzeyə çevrilmişdir. Həmçinin Təbrizdəki möhtəşəm "Şairlər məqbərəsi"nin önündə M.Şəhriyarın yaraşıqlı büstü də ucalır.
İndi isə oxucuların ifasında xalq şairi Süleyman Rüstəmin M.Şəhriyara həsr etdiyi **"Şair qardaşıma məktub"** adlı şeirini dinləyək.

**I oxucu:**

Qoy söyləyim ürəyimin sözünü,
Bir kərə də görməmişəm üzünü,
Nigaranam, yetir mənə özünü,
Məhəbətin bağrımdadır, Şəhriyar,
Mənim ürək ağrımdadır, Şəhriyar!

Kim deyir ki, lisanımız ayrıdır,
Nə adımız, nə sanımız ayrıdır,
Nə canımız, nə qanımız ayrıdır,
Ürək birdir, bədən birdir, Şəhriyar,
Vətən birdir, vətən birdir, Şəhriyar!

El içində hörmətinə bələdəm,
Dildə gəzən şöhrətinə bələdəm,
Cürətinə, qeyrətinə bələdəm,
Eldən gəlir ülviyyətin, Şəhriyar,
Baş əyməyən həqiqətin, Şəhriyar.

Havaları nə gözəlmiş bu yazın,
Araz üstdən çatdı mənə avazın,
Yarı canım bu tayında Arazın,
Yarı canım yanındadır, Şəhriyar,
Şeirin, sözün ətir dadır, Şəhriyar.

Gülşənlərdə çiçəkləri dindirən,
Gözəlləri, göyçəkləri dindirən,
Sevgi dolu ürəkləri dindirən,
"Heydərbaban" nə gözəldir, Şəhriyar,
Nə qəsidə, nə gözəldir, Şəhriyar.

Qürbətə yox, gəl öz doğma elinə,
Əl uzatsam əlim çatar əlinə,
And içirəm anamızın dilinə,
Gəlişinin möhtacıyam, Şəhriyar,

Gülüşünün möhtacıyam, Şəhriyar.

**II oxucu:**

Hər canlıdan sənə bu can yaxındır,
Uzaq deyil, yol ki, yaman yaxındır,
Qaşla gözün arasından yaxındır,
Gəl-gəl deyir sonbeşiyim, Şəhriyar,
Qurban sənə ev-eşiyim, Şəhriyar.

Gəl qəmləri küləklərə verim, gəl,
Öz bağımdan sənə güllər dərim, gəl,
Sən məni gör, mən də səni görüm, gəl,
Demə ömür xəzansızdır, Şəhriyar,
Əcəl yaman amansızdır, Şəhriyar.

Gəl Bakıya bağım-bağçam güləndə,
Bircə ovuc torpaq gətir gələndə,
Dostlar qatsın torpağıma öləndə,
Bəlkə onda kama çatım, Şəhriyar,
Son mənzildə rahat yatım, Şəhriyar.

Beşikdəki quş yuxulu körpələr,
Dodaqları süd qoxulu körpələr,
Babaları dağdan ulu körpələr,
Bizi əvəz edəcəklər, Şəhriyar,
Yolumuzla gedəcəklər Şəhriyar.

Danışdıqca nəsillərin adından,
Şair çıxmaz millətinin yadından,
İkiəlli bu sözlərin altından
Şair kimi qol çəkirəm, Şəhriyar,
Millətimə baş əyirəm, Şəhriyar.

Qoy bir də qan çilənməsin torpağa,
Yer üzündə  nə qul olsun, nə ağa,
Şənlik qursun Təbriz, Mərənd, Marağa,
Dilə gəlsin kamanımız, Şəhriyar,
Belə keçsin dövranımız, Şəhriyar.

**I aparıcı:** Beləliklə, qeyd etmək lazımdır ki, Azərbaycanda Məhəmmədhüseyn Şəhriyarın ölməz sənətinə və şəxsiyyətinə böyük ehtiram bəslənilir. Ustad şairin əsərləri dəfələrlə müxtəlif nəşriyyatlar tərəfindən nəşr edilib çox geniş dairədə yayılmış, dillər əzbərinə çevrilmişdir. Qüdrətli sənətkarın şeirlərinə bəstələnmiş mahnılar da hər kəs tərəfindən sevilir. Artıq şəhriyarşünaslıq Azərbaycan elminin müstəqil bir qolunu təşkil edir. Azərbaycan alimləri ustad Şəhriyar haqqında dəyərli monoqrafiyalar və məqalələr yazıb nəşr etdirmişlər. M.Şəhriyara həsr olunmuş dissertasiyalarda şairin həyatı, mühiti, şeirləri və poemaları, dünyagörüşü, ədəbi təsir dairəsi, əsərlərinin sənətkarlıq xüsusiyyətləri kimi ciddi elmi məsələlər dərindən araşdırılıb öyrənilmişdir. Məhəmmədhüseyn Şəhriyarın həyatı və əsərləri Azərbaycanın ali və orta məktəblərində də öyrədilir. Ustad Məhəmmədhüseyn Şəhriyarın adı Azərbaycanda da əbədiləşdirilmişdir. Bakıda, Naxçıvanda, Gəncədə, Sumqayıtda və digər böyük şəhərlərdə Şəhriyarın adını daşıyan geniş və yaraşıqlı küçələr, məktəblər və parklar vardır. Həmçinin Bakı şəhərindəki Şəhriyar adına Mədəniyyət sarayı da böyük şairə bəslənilən ehtiramı ifadə edir. Beləliklə, Məhəmmədhüseyn Şəhriyar yaşayır və qədirbilən xalqı qüdrətli şairi həmişə öz qəlbində yaşadır və gələcəyə aparır.

*(Tədbir Məhəmmədhüseyn Şəhriyarın "Azərbaycan" musiqisi ilə sona çatır.)*

**S O N**

## ƏDƏBİYYAT SİYAHISI

**Əsərləri:**

1. Məhəmmədhüseyn Şəhriyar. Seçilmiş əsərləri. - Bakı : Avrasiya Press, 2005. - 478 s.

2. Məhəmmədhüseyn Şəhriyar. Seçilmiş əsərləri. - Bakı : Çaşıoğlu, 2004. - 272 s.

3. Məhəmmədhüseyn Şəhriyar. Seçilmiş əsərləri. - Bakı : Elm, 2000. - 492 s.

4. Məhəmmədhüseyn Şəhriyar. Heydərbabaya salam. - Bakı : Adiloğlu, 2004. – 94 s.

**Haqqında:**

1.Gedikli Yusif. Şəhriyar və bütün türkcə şeirləri: ədəbi tənqid.- Bakı : YOM yayınları, 2007. - 192 s.

2. Həbibbəyli İsa Əkbər. Ustad Məhəmmədhüseyn Şəhriyar: albom-monoqrafiya. - Bakı : Elm, 1999. - 138 s.

3.Quliyev Elman. Şəhriyar poeziyası və milli təkamül. - Bakı : Elm, 2004. - 280 s.

4.Şəhriyarın divanı. - Bakı : Əlhuda, 2003. - 248 s.

5.Şükürova Esmira Seyfəl. Məhəmmədhüseyn Şəhriyar: Həyatı, mühiti, yaradıcılığı. - Bakı : Maarif, 1999. - 224 s.

6. Türk xalqları ədəbiyyatı: poeziya IV cild: Ən yeni dövr. - Bakı : Çaşıoğlu - Azərbaycanda Atatürk Mərkəzi, 2007. - 320 s.

**DÖVRİ MƏTBUATDA**

**Əsərləri:**

Məmmədhüseyn Şəhriyar. Heydərbaba, kəhliklərin uçanda... : "Heydərbabaya salam" poemasından bir parça // Ədəbiyyat qəzeti. - 2010. - 19 mart. - N 11/12. - S.7.

**Haqqında:**

Ədaləti Qulamhüseyn. M. Şəhriyarın ədəbi irsində ana dili milli tərbiyə vasitəsi kimi // Azərbaycan dili və ədəbiyyatı tədrisi. - 2008. - № 1. - S.28-30.

Əhmədov Teymur. Humanitar ideyalar carçısı Seyid Məhəmmədhüseyn Şəhriyar (1906 -1988) // Füyuzat. - 2007. - № 3(35). - S.34-41.

Hüseynoğlu Sərvaz. "Bir görəydim ayrılığı kim saldı..." : Məhəmməd Şəhriyarın poeziyasında azərbaycançılıq ideyaları // Azərbaycan. - 2008. - № 4. - S.174-175.

Quliyev Elman. "Heydərbaba" yüksəkliyi - sənət möcüzəsi // Ədəbiyyat qəzeti. - 2007. - 6 aprel. - S.1, 3, 4.

Məmmədli Pərvanə. "Azadlıq quşu" - "Varlığ"ın növbəti sayı // Ədəbiyyat qəzeti. - 2007. - 25 may. - S.6.

Rüstəmli Asif. Bölünmüş Azərbaycanın bölünməz sərvəti // Ədəbiyyat qəzeti. - 2005. - 2 dekabr. - S.1.

Sultan Mehriban. "Azəri elinin bir yaralı nisgilyəm mən" : naxçıvan Dövlət Universitetində "Məhəmmədhüseyn Şəhriyarın sənət dünyası" adlı beynəlxalq elmi konfrans keçirildi // Ədəbiyyat qəzeti. - 2010. - 19 mart. - N 11/12. - S.7.

**Tərtib edən:** Könül Səmədzadə – F. Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin baş kitabxanaçısı

**Redaktor:** Fizurə Quliyeva – F. Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru